# Kənd təsərrüfatı naziri Qəbələdə fermerlərlə görüşüb

Kənd təsərrüfatı naziri İnam Kərimov aprelin 25-də Qəbələ rayonunda fermerlərlə görüş keçirib.

Görüşdən əvvəl İnam Kərimov və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, ulu öndərin xatirəsini dərin ehtiramla yad ediblər.

Qəbələ Rayon İcra Hakimiyyətində keçirilən görüşdə Kənd Təsərrüfatı Nazirliyi Aparatının nümayəndələri, rayon icra hakimiyyətinin məsul şəxsləri, nazirliyə tabe olan qurumların, dövlət aqrar inkişaf mərkəzlərinin nümayəndələri və rayonda kənd təsərrüfatının müxtəlif sahələrində çalışan fermerlər iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev ölkədə kənd təsərrüfatının inkişafına geniş dövlət dəstəyinin mövcud olduğunu, məhz dövlətin diqqət və qayğısı nəticəsində son illərdə rayonda taxılçılığın, meyvəçiliyin, baramaçılığın və heyvandarlığın daha da inkişaf etdiyini bildirib.

RİH-nin başçısı giriş nitqində Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün rayonda görülən işlərin, həyata keçirilən layihələrin nəticəsində Qəbələnin tarixi şöhrətini özünə qaytardığı, beynəlxalq mədəniyyət mərkəzinə çevrildiyi və tarixiliklə müasirliyin sintezi fonunda yenidən qurulduğunu vurğulayıb. Qeyd edilib ki, ölkə başçısının dediyi kimi indi respublikamızın ikinci turizm şəhəri olan Qəbələdə yeni-yeni sənaye müəssisələrinin, məktəblərin, səhiyyə ocaqlarının, idman komplekslərinin, turizm-istirahət mərkəzlərinin, asfalt yollarının, müasir körpülərin inşa olunması bunun əyani nümunəsidir.

Natiq həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yaxından köməkliyi və təşkilatçılığı ilə Qəbələdə hər il beynəlxalq musiqi festivallarının, rəsm sərgilərinin və digər xeyriyyə tədbirlərinin təşkil olunduğunu diqqətə çatdırıb.

Qəbələnin həm də ənənəvi kənd təsərrüfatı bölgəsi olduğunu deyən RİH-nin başçısı rayon iqtisadiyyatının əsasını təşkil edən bu sahənin inkişaf etdirilməsi ilə bağlı xeyli işlər görüldüyünü və çox böyük nailiyyətlər əldə edildiyini söyləmişdir. Xüsusilə ölkə başçısının imzaladığı “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Sərəncamın aqrar sektorun sürətli inkişafına böyük stimul verdiyini bildirən RİH-nin başçısı bu gün yeni aqrotexniki nailiyyətlərə əsaslanan rayon fermerlərinin mütərəqqi metodlar tətbiq etməklə əkin sahələrinin genişləndirilməsini deyil, məhsuldarlığın çoxaldılmasını və ixrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını diqqət mərkəzində saxladıqlarını deyib.



Görüşdə kənd təsərrüfatı naziri İnam Kərimov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü siyasət nəticəsində iqtisadiyyatın digər sahələri kimi aqrar sahə də keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Nazir bildirib ki, ölkədə aqrar sahə qeyri-neft sektorunun ən aparıcı sahəsi elan edilib: “Aqrar sahənin daha da inkişafı üçün dövlət tərəfindən çox böyük dəstək tədbirləri həyata keçirilir. Taxılçılıq, toxumçuluq, heyvandarlıq, arıçılıq, şəkər çuğunduru və pambıqçılığın inkişafı üçün subsidiya verilir. O cümlədən, aqrar sahədə texnika təminatı ilə bağlı dövlət tərəfindən güzəştlər tətbiq edilir. Biz fəaliyyətimizdə kəndli və fermerlərə yaxınlıq, düzgün və səmərəli idarəçilik, innovasiyaların tətbiqi prinsiplərini əsas götürürük. Bu görüşün keçirilməsində məqsəd fermerlərin qayğı və problemlərini dinləmək, təxirəsalınmaz tədbirlər görməkdir”.

Nazir Azərbaycanda aqrar sahənin inkişafı ilə bağlı mövcud vəziyyət, qarşıda duran vəzifələr və həyata keçiriləcək tədbirlər barədə məlumat verib.

Tədbirdə fermerlər məşğul olduqları sahə ilə bağlı fikirlərini bölüşüblər. Mineral gübrələr, dərmanlar, herbisid və pesdisitlər, o cümlədən texnika ilə təminat ətrafında fikir mübadiləsi aparılıb, fermerlərin təklifləri qeydiyyata alınıb, sualları cavablandırılıb.

Görüşdə ölkədə aqrar sahənin inkişafı məqsədilə qarşıya qoyulan vəzifələrə toxunulub, bu cür müzakirələrin mütəmadi olaraq keçirilməsi qərara alınıb.

**“Qəbələ”**

# Qayğı ilə yanaşılır

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı verdiyi tapşırıq və tövsiyyələri rəhbər tutaraq yerlərdə səyyar qəbulların keçirilməsi, vətəndaşların qaldırdıqları məsələlərin operativ həlli, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlərin görülməsi daim Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin nəzarətində saxlanılır.***

## *Həmzəli kəndi*

Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev daha bir səyyar görüş-qəbulu aprelin 23-də Həmzəli kəndinin sakinləri ilə keçirilib. Görüşdə rayonun hüquq mühafizə orqanlarının, müvafiq idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri iştirak ediblər.

Tədbiri açan RİH-nin başçısı Prezident İlham Əliyev tərəfindən aparılan sosialyönümlü islahatlar, ölkəmizdə əldə edilən iqtisadi və siyasi uğurlar nəticəsində əhalinin sosial müdafiəsinin və həyat səviyyəsinin gündən-günə yaxşılaşdığını diqqətə çatdırıb. Vətəndaşların maddi, mənəvi tələbatlarının ödənilməsi ilə bağlı onlara şərait yaradılması istiqamətində aparılan işlərin bu gün Azərbaycan dövlətinin



prioritetlərindən olduğunu vurğulayan RİH-nin başçısı, Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz insan amili, vətəndaşların mənafeyi dayandığını bildirib.

Əhalinin sosial rifahının yaxşılaşdırılmasına dair dövlətimizin başçısı tərəfindən imzalanan fərman və sərəncamların hamısının vətəndaş məmnunluğunun artırılmasına yönəldildiyini deyən natiq minimum əməkhaqqının, pensiyaların, tələbələrin təqaüdlərinin artırılması və digər ödənişlərin həyata keçirilməsi istiqamətində aparılan islahatların sosialyönümlük və humanizm prinsiplərinə əsaslandığını bildirib.

RİH-nin başçısı qəbul olunan dövlət proqramlarının icrası nəticəsində bütün regionlarda, o cümlədən Qəbələ rayonunda həyata keçirilən abadlıq-quruculuq işləri barədə görüş iştirakçılarına ətraflı məlumat verib.

Qeyd edilib ki, gündən-günə dəyişən, gözəlləşən rayonumuzun bütün yaşayış məntəqələrində, o cümlədən Həmzəli kəndində əhaliyə göstərilən sosial qayğıların səviyyəsi gündən-günə artır, kənd sakinləri fasiləsiz rabitə, elektrik enerjisi və təbii qazla təmin olunur.



Sonra vətəndaşlar dinlənilib. Onlar rayonumuzda və Həmzəli kəndində son illər aparılan tikinti-quruculuq və abadlıq işlərinə, yaradılan yeni iş yerlərinə görə ölkə başçısına minnətdarlıqlarını bildiriblər.

Sakinlərdən Aslan İslamov, Əmir Cəfərov, İkram Həsənov və başqaları kənd məktəbinin əsaslı təmir olunmasını, yaşayış məntəqəsinin sel sularından mühafizəsini gücləndirmək məqsədilə Həmzəli çayının sahilində beton bəndin inşa edilməsini və ərazidə işıq xətlərinin və transformatorların dəyişdirilməsini xahiş ediblər.

Rayon icra hakimiyyətinin başçısı vətəndaşlar tərəfindən qaldırılan məsələlərin və verilən təkliflərin icrası ilə əlaqədar aidiyyəti idarə və təşkilat rəhbərlərinə müvafiq tapşırıqlar verib.

**“Qəbələ”**

**İlkin Vəlizadə (foto).**